DOI: https://doi.org/10.36719/2706-6185/49/54-58

**Lalə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0004-0683-7191
lale_memmedova95@bk.ru

# Korreksiya-inkişafetdirici fəaliyyətin xüsusi təhsil müəssisələrində tətbiqi və müəllimin rolu

## Xülasə

Xüsusi təhsil müəssisələrində təlim-tərbiyənin təşkili və korreksiya yönümlü fəaliyyətin həyata keçirilməsində müəllimin əvəzsiz rolu vardır. Bu tip məktəblərdə çalışan pedaqoqların funksional vəzifələri ümumi təhsil müəssisələrində çalışan müəllimlərdən fərqlənir. Onların pedaqoji fəaliyyəti həm dövlət təhsil siyasətinə uyğun tədris aparan rəsmi bir şəxs, həm də uşağın şəxsiyyət kimi formalaşmasına və sosial adaptasiyasına dəstək verən bir sosial işçi və eyni zamanda davranış, psixi və sensor çatışmazlıqları olan uşaqlarla işləyən defektoloq və sosial pedaqoq kimi çoxşaxəli rolları özündə birləşdirir. Bu müəssisələrdə müəllimlər, şagirdlərin inkişafındakı mövcud və mümkün ola biləcək problemləri aradan qaldırmağa yönəlmiş düzgün metod və yanaşmaları seçərək, onları dərs prosesinə tətbiq etməklə fəaliyyət göstərirlər. Pedaqoqlar uşaqların yaş xüsusiyyətlərinə uyğun anatomiya və psixofizioloji inkişaf qanunauyğunluqlarını, onların fərdi psixoloji xüsusiyyətlərini dəqiq bilməlidirlər. Müəllim daim təşəbbüskar, yaradıcı olmalı, çətinlikləri olan uşaqlardan ibarət sinfə rəhbərlik edərək təlim prosesində əsas istiqamətverici şəxsə çevrilməlidir. Beləliklə, korreksiya yönümlü təhsil sahəsində çalışan müəllimlərin şəxsi keyfiyyətləri və peşəkarlığı bir-birini tamamlamalıdır.

***Açar sözlər:*** *xüsusi təhsil müəssisələri, pedaqoq, pedaqoji fəaliyyət, təlim-tərbiyə, korreksiya-edici*

**Lala Mammadova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0004-0683-7191
lale_memmedova95@bk.ru

# The Application of Corrective And Developmental Activity in Special Educational Institutions and the Role of the Teacher

## Abstract

The teacher has an indispensable role in the organization of education and correctional activities in special educational institutions. The functional duties of teachers working in such schools differ from those of teachers working in general education institutions. Their pedagogical activity combines the multifaceted roles of both an official who conducts education in accordance with state educational policy, a social worker who supports the formation of the child's personality and social adaptation and a defectologist and social pedagogue who works with children with behavioral, mental and sensory deficiencies. In these institutions, teachers operate by selecting the right methods and approaches aimed at eliminating existing and possible problems in the development of students and applying them to the teaching process. Educators must accurately know the laws of anatomy and psychophysiological development of children according to their age characteristics, as well as their individual psychological characteristics. The teacher must always be proactive, creative and lead a class of children with difficulties, becoming the main guiding figure in the learning process. Thus, the personal qualities and professionalism of teachers working in the field of correctional education must complement each other.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

***Keywords:*** *special educational institutions, pedagogue, pedagogical activity, training education, correctional*

## Giriş

İnklüziv təhsil müəllimdən daha yüksək məsuliyyət və peşəkarlıq tələb edir. Belə müəllimlər sağlamlıq imkanları məhdud şagirdləri dəstəkləmək üçün düzgün yanaşma müəyyən etməli və onları cəmiyyətə faydalı fərdlər kimi yetişdirməyi bacarmalıdırlar. Bu kateqoriyaya daxil olan uşaqlara müəllim müxtəlif sahələrdə yardım göstərə bilər:

➢ Sosial adaptasiya;

➢ Emosional dayanıqlığın gücləndirilməsi;

➢ Öz qabiliyyətlərinə güvən hissinin inkişaf etdirilməsi;

➢ Sağlamlıq imkanları məhdud şagirdlə digər şagirdlər arasında sağlam və müsbət münasibətlərin qurulması (Ağayeva, 1999).

**Tədqiqat**

Sosial dəstəyin əsas məqsədi uşağın cəmiyyətdə öz yerini və rolunu dərk etməsinə kömək etməkdir. Bu mərhələdə müəllimlərin psixoloq və valideynlərlə sıx əməkdaşlıq şəraitində çalışması xüsusi əhəmiyyət daşıyır. Sağlamlıq imkanları məhdud şagirdlər isə əksər hallarda daha çox emosional dəstəyə ehtiyac duyurlar. Belə şagirdlər özlərini digər uşaqlardan zəif hesab etdikləri üçün tez-tez özlərinə qapanır və sosial əlaqə qurmaqda çətinlik yaşayırlar. Bu kimi hallarda müəllim onların psixoloji vəziyyətinə diqqət yetirməli və yaranan mənfi emosiyaların aradan qaldırılmasına çalışmalıdır. Bundan əlavə, müəllimlər dərs zamanı bu şagirdlərdə öyrənməyə olan inamı formalaşdırmalıdır. Şagird öz öyrənmə bacarığına inandıqda, artıq özünü zəif və fərqli hiss etmir, bu isə onda özünəinamın inkişafına səbəb olur. Sağlamlıq imkanları məhdud uşaqlar üçün əsas prioritetlərdən biri də ünsiyyət və qarşılıqlı əlaqə bacarıqlarının inkişaf etdirilməsidir. Müəllim yalnız həmin şagirdlərlə deyil, bütün siniflə birgə işləməli, onları bir kollektiv kimi formalaşdırmalıdır. Belə yanaşma, sağlamlıq imkanları məhdud olan şagirdə həm özünü digər uşaqlardan geri qalmayan bir fərd kimi hiss etdirməyə, həm də ətrafdakıların ona münasibətində fərqlilik etməməsinə şərait yaradır. Xüsusi təhsildə müəllimin valideynlərlə mütəmadi əlaqədə olması olduqca önəmlidir. Bu, dərs prosesində formalaşdırılmış müsbət və dəstəkləyici mühitin ev şəraitində də davam etdirilməsi üçün zəruridir. Belə əməkdaşlıq sayəsində müəllimlər valideynlərdən şagirdin fərdi ehtiyacları barədə daha ətraflı məlumat əldə edə bilər və bu məlumatı tədris prosesində effektiv şəkildə tətbiq edə bilərlər. Valideynlərlə yalnız ümumi görüşlər deyil, eyni zamanda fərdi və məqsədyönlü iş aparılması da vacibdir (Qasımov, Kərimova, 2004). Müəllim ailə üzvlərinin psixoloji gərginliyini azaltmaqda onlara yardımçı olmalı və sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətdə yer tutmaları üçün ailənin imkanlarını düzgün istiqamətə yönləndirməyi bacarmalıdır. Xüsusi təhsilin əsas hərəkətverici qüvvəsi müəllimin şagirdə göstərdiyi dəstəkdir. Bu prosesdə müəllimin yalnız təcrübəsi deyil, həm də uyğun strategiya seçə bilməsi və onu reallaşdırmaq bacarığı inklüziv təhsilin uğurla tətbiqində əsas amillərdən sayılır. İnklüziv təhsil mühitinin uğurla formalaşdırılması müəllimlərin, məktəb rəhbərliyinin və valideynlərin birgə səyi ilə mümkün olur. Bu səbəbdən xüsusi təhsil sahəsində çalışan pedaqoqlar ümumi təhsil müəllimləri ilə əməkdaşlıq etməli, şagirdlərdə müsbət davranış və mədəniyyətin formalaşdırılması, eləcə də ortaq tədris proqramlarının hazırlanması üçün birlikdə fəaliyyət göstərməlidirlər. Qeyd etmək lazımdır ki, inklüziv siniflərdə sağlamlıq imkanları məhdud olan uşaqların keyfiyyətli təhsil almasını təmin etmək baxımından xüsusi təhsil müəllimlərinin rolu olduqca əhəmiyyətlidir. Müxtəlif bacarıqlara malik şagirdlərin ehtiyacları yalnız peşəkar mütəxəssis və xüsusi təhsil müəlliminin dəstəyi ilə təşkil edilmiş uyğun təlim mühitində qarşılanmalıdır. İnklüziv təhsilin müsbət nəticələr verməsi üçün öyrənməyə şərait yaradan effektiv təlim modelləri və əlverişli pedaqoji mühit formalaşdırılmalıdır. Həm xüsusi, həm də ümumi təhsil müəllimləri inklüziv təhsilin prinsiplərinə açıq yanaşmalı, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etməli, sağlamlıq imkanları məhdud şagirdlərin ehtiyaclarını ödəmək üçün zəruri bilik və inzibati dəstəyə malik olmalıdırlar. Xüsusi təhsil müəlliminin bu sahədə iştirakı birləşdirilmiş sinif mühitinin uğurlu nəticələr verməsində mühüm rol oynayır.

Xüsusi təhsil müəllimləri inklüziv siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların fərdi ehtiyaclarının nəzərə alınması üçün dərs planlarının hazırlanmasına yardım etməlidirlər. Bu məqsədlə müəllimlər birgə fəaliyyət göstərərək, hər bir şagird üçün əlçatan və uyğunlaşdırılmış tədris planı üzərində işləyə bilər və ya xüsusi təhsil müəllimi ümumi təhsil müəlliminin planına düzəlişlər edə bilər. Eyni zamanda, xüsusi təhsil müəllimi əlavə təlim materialları – vizual resurslar, mətnlər, manipulyativ vasitələr və texnologiya əsaslı mənbələr hazırlamalı, təktək dərslərin nə zaman tələb oluna biləcəyini müəyyən etməlidir. Dərs planlaşdırılarkən şagirdlərin güclü və zəif tərəfləri, maraqları və ünsiyyət bacarıqları nəzərə alınmalı, onların təhsil uğurları diqqətlə izlənərək uğura doğru irəliləyiş təmin edilməlidir. İnklüziv sinif mühitində sağlamlıq imkanları məhdud şagirdlərə uyğun tədris şəraiti yaratmaq üçün xüsusi və ümumi təhsil müəllimlərinin sıx əməkdaşlığı vacibdir. Uşaqların tədrisə fəal şəkildə cəlb olunması onların ehtiyaclarına uyğun fərdi təlimat və dəstək vasitəsilə təmin olunur. Müəllim zəruri hallarda şagirdi fərdi dərs və ya emosional dəstək üçün sinifdən kənara çıxara bilər. Eyni zamanda, qiymətləndirmə sənədlərinin tərtibində və qaydaların tətbiqində ümumi təhsil müəllimine dəstək göstərərək inklüziv mühitin qorunmasına töhfə verir. Tədrisin effektivliyini artırmaq üçün dərsləri kiçik qruplara ayırmaq da faydalı ola bilər (Ağayeva, Əliyeva, 1999).

Xüsusi təhsil müəllimlərinin önəmli funksiyalarından biri də şagirdlərin təlim hədəflərinə çatıb-çatmadığını müəyyən etmək üçün dövri qiymətləndirmələr aparmaqdır. Şagirdlər özlərini həm müstəqil, həm də dəyərli hiss etməli, tədris zamanı kifayət qədər dəstək aldıqlarını qavramalıdırlar. Müəllimlər valideynlər və digər müvafiq şəxslərlə birlikdə mütəmadi iclaslar keçirməli, tədris planının yenilənməsinə ehtiyac olub-olmadığını müəyyənləşdirməlidirlər (Qasımov, 2000).

Müəllimlər elmi və pedaqoji ədəbiyyatdan səmərəli istifadə edərək sağlamlıq imkanları məhdud uşaqlarla aparılacaq korreksiya və kompensasiya yönümlü fəaliyyətlərin müxtəlif formalarını hazırlaya bilərlər. Tədris-tərbiyə prosesinin planlaşdırılmasında psixoloji və pedaqoji amillər əsas götürülməli, bu amillərin korreksiya işində tətbiq xüsusiyyətləri nəzərə alınmalıdır. Həmçinin müəllim bu sahədə düzgün metod və yanaşmaları seçməyi və tətbiq etməyi bacarmalıdır. Müəllim daima aktiv, yaradıcı olmalı, psixo-fiziki inkişafında gerilik olan uşaqlardan ibarət bir qrupla işləyərkən təlim və tərbiyə prosesində əsas istiqamətverici rol oynamalıdır. Bu baxımdan, korreksiya yönümlü təhsil müəssisələrində çalışan müəllimlərin şəxsi keyfiyyətləri ilə peşəkarlıq səviyyələri bir-biri ilə vəhdət təşkil etməlidir. Beləliklə, korreksiyaedici təhsil müəssisələrində çalışan müəllimlərin şəxsi keyfiyyətlərinə dair əsas tələblər aşağıdakılardan ibarətdir:

➢ Müəllim insansevər olmalı, uşaqlara qarşı diqqətli və mərhəmətli yanaşmalı, onlara yardım göstərməyə daim hazır olmalıdır;

➢ Şagirdlərlə ünsiyyətdə müəllim səbirli və mehriban davranmalı, onların qeyri-adi davranışlarına anlayışla və sakit şəkildə reaksiya verməlidir;

➢ Pedaqoq qeyri-adekvat və çətin situasiyalarda özünü itirməməli, zəruri hallarda əsaslandırılmış və operativ qərarlar qəbul edib onları tətbiq etmə bacarığına malik olmalıdır;

➢ Müəllim ardıcıl və prinsipial olmalı, lakin sərtlik və qəddarlıqdan uzaq durmalıdır; onun zarafat və yumor hissi olmalı, bu hiss vasitəsilə sinifdə yaranan mənfi halları yumşaltmalı, eyni zamanda heç bir halda uşaqlara alçaldıcı davranış sərgiləməməlidir.

Xüsusi təhsil müəssisələrində dərsə hazırlıq prosesi qarşılıqlı əlaqədə olan üç əsas mərhələdən ibarətdir: diaqnostika, proqnozlaşdırma və planlaşdırma (M. İ. Maxmutov, P. İ. Pidkasistıy, Q. M. Dulnev, V. V. Voronkova). Bəzi mənbələrə əsasən, bu hazırlıq iki əsas həlqədən də ibarət ola bilər: dərs sisteminin ümumi planlaşdırılması və bu planın konkret dərsə uyğunlaşdırılması (Hüseynova, 2006). Diaqnostik hazırlıq müəllimin dərsi aparmazdan əvvəl bütün vacib amilləri nəzərə almasını nəzərdə tutur: dərsin ümumi tədris sistemindəki yeri, şagirdlərin fərdi imkanları, onların maraq və motivasiyası, intellektual səviyyəsi və tədris materialının xüsusiyyətləri. Bu mərhələdə müəllimin öz fəaliyyətinin nəticələrini əvvəlcədən görə bilmə bacarığı formalaşır. Nəticədə pedaqoq gələcək fəaliyyətini planlaşdıraraq öz imkanlarını və resurslarını dəyərləndirir. Sadə dillə desək, proqnozlaşdırma müəllimin keçəcəyi dərsin mümkün ssenarilərini qiymətləndirməsinə xidmət edir (Hüseynova, 2014).

Proqnozlaşdırma və planlaşdırma şagirdlərin bilik səviyyəsini və bu səviyyəyə uyğun plan və təlim formasını seçməyə imkan verir. Müasir proqnozlaşdırma texnologiyaları dərsin effektivliyinin müxtəlif göstəricilərini üzə çıxarmağa şərait yaradır.

Dərsin əsas məqsədi şagirdlərdə bilik, bacarıq və vərdişlərin formalaşdırılmasıdır. Planlaşdırma isə dərsə hazırlığın son mərhələsi sayılır. Ümumtəhsil və xüsusi təhsil sistemlərində planlaşdırma iki formada həyata keçirilir:

➢ Təqvim-tematik plan – müəllim tərəfindən fənn üzrə mövzular əsasında əvvəlcədən tərtib olunur və planın bütün komponentlərini əhatə edir.

➢ Gündəlik dərs planı (plan-konspekt) – konkret dərs üçün hazırlanır və dərsin vaxtı, mövzusu, məzmunu,

ardıcıllığı, materialın həcmi kimi detalları özündə əks etdirir.

Dərsin məqsəd və vəzifələri ümumtəhsil və korreksiya yönümlü təlim məqsədlərinə əsaslanır. Eyni zamanda dərsin təminatı – cədvəllər, şəkillər, didaktik vasitələr və digər təlim resursları – dərsin məzmununa və metodik tələblərə uyğun şəkildə seçilməlidir. Tematik planlaşdırma gündəlik dərsin hazırlanmasında əsas baza rolunu oynayır və dərsin növü, məqsədi və əsas vəzifələrini əhatə edir (Aksenova, Arkhipov, Belyakova, 2001).

## Nəticə

Əlilliyin tibbi modeli əsasən fərdin özünə yönəlir və onu problemi olan bir insan kimi dəyərləndirir. Bu yanaşma, şəxsin cəmiyyətdə aktiv iştirak etməsinə mane olan sosial və fiziki əngəlləri nəzərə almır. Xüsusi təhsil sahəsində bu yanaşma, əlilliyi olan uşaqların məktəbdə təhsil alma və dərs prosesində fəal iştirak etmə imkanlarını məhdudlaşdırır. Tibbi modelin əsas çatışmazlığı ondan ibarətdir ki, o, insan hüquqlarına əsaslanan yanaşmanın çevik və çoxşaxəli xarakterini nəzərə almır və uşağa yalnız diaqnoz əsasında münasibət bəsləməyə səbəb olur. Bu isə uşağın cəmiyyət tərəfindən damğalanmasına, təhsildəki struktur problemlərin aradan qaldırılması əvəzinə onun problemin mənbəyi kimi görülməsinə gətirib çıxarır. Əslində isə yalnız əlilliyi olan uşaqlar deyil, bir çox digər məktəblilər də tədris prosesində müxtəlif çətinliklərlə qarşılaşır. Bu səbəbdən təlimin keyfiyyətini yüksəltmək üçün həmin çətinliklərin aradan qaldırılması, edilən dəyişikliklərin isə bütün şagirdlər üçün öyrənmə şəraitini yaxşılaşdırması əsas məqsəd olmalıdır. Əlilliyi olan uşaqlarla yalnız ayrıca işləmək üçün mütəxəssislər dəvət etməkdənsə, məktəbdə çalışan müəllimlərin peşəkar bacarıqlarının artırılması daha məqsədəuyğundur. Belə uşaqlar problemi təmsil etmir; əksinə, onların ehtiyaclarını qarşılaya bilməyən təhsil sistemi əsl çətinlik kimi dəyərləndirilməlidir. İnklüziv təhsilin tətbiqi zamanı təhsil müəssisələrinin əsaslanmalı olduğu prinsiplər aşağıdakılardır:

➢ Fərdi yanaşma prinsipi – hər bir uşağın fərdi xüsusiyyət və ehtiyaclarının nəzərə alınması;

➢ Uşağın müstəqil fəaliyyəti üçün dəstək prinsipi – uşağın sərbəstliyini inkişaf etdirməyə yönəlmiş dəstək;

➢ Təhsil prosesində bütün iştirakçıların aktiv iştirakı prinsipi – müəllim, valideyn, mütəxəssis və uşağın təhsildə birgə rolu;

➢ Fənlərarası əməkdaşlıq prinsipi – müxtəlif sahələrin mütəxəssisləri arasında sıx əməkdaşlıq;

➢ Təlim və tərbiyənin təşkilində çeviklik prinsipi – birgə çalışan mütəxəssislər (pedaqoq, loqoped, psixoloq, sosial pedaqoq, defektoloq) tərəfindən uşağın inkişaf səviyyəsi mütəmadi şəkildə diaqnostik qiymətləndirməyə alınmalıdır;

➢ Ailə ilə əməkdaşlıq prinsipi – valideynlərlə qarşılıqlı və davamlı əməkdaşlıq əsasında fəaliyyətin qurulması;

➢ Uşaq bağçalarında təhsil modelinin dinamik inkişafı prinsipi – erkən yaş təhsil müəssisələrində inklüziv yanaşmanın mərhələli və inkişaf yönümlü tətbiqi.

## Ədəbiyyat

1. Ağayeva, T. H. (1999). *Ümumtəhsil məktəblərində loqopedik işin təşkili*. ADPU.
2. Ağayeva, T. H., & Əliyeva, S. M. (1999). *Loqopediyanın nəzəri-praktik məsələləri*. Maarif.
3. Aksenova, L. I., Arkhipov, B. A., & Belyakova, L. I. (2001). *Spetsial'naya pedagogika*. Akademiya.
4. Hüseynova, N. T. (2014). *Loqopedik atlas*.
5. Hüseynova, N. T., & Rüstəmova, L. H. (2006). *Xüsusi pedaqogika*.
6. Qasımov, S. Ə., & Kərimova, E. M. (2004). *Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası*.
7. Qasımov, S. Ə., & Talıbov, Y. (2000). *Anomal uşaqların əlahiddə pedaqogikanın əsasları*.

Daxil oldu: 12.02.2025
Qəbul edildi: 19.06.2025